# ABDULLA QURBANİ UCALIĞI



*(Əvvəli ötən saylarımızda)*

**Kəmaləddin Qədim:** - Ataların belə gözəl bir kəlamı var ki, görünən dağa nə bələdçi . Abdulla Qurbaninin ömür-gün yolu demək olar ki, gözlərimin önündə keçib. Mənim bir qələm adamı kimi Abdulla Qurbaniyə ən azından minnətdarlıq borcum var. Sədərəkdə doğulduğuma görə zaman-zaman çox ciddi mürəkkəb hadisələrin, çox qanlı toqquşmaların işindən keçib gəlmişəm. Elə tarixi hadisələr var ki, onları qələmə almaq birbaşa mənim missiyam olsa da məhz Abdulla Qurbani qələmə alıb. Onun vətən, xalq, tarix qarşısındakı misilsiz xidmətlərini saymaqla bitirmək başa çatdırmaq qeyri-mümkündür. Tale elə gətirib ki, Abdulla Qurbani yaradıcılıq fəaliyyətinə də məhz Naxçıvandan başlayıb. Bu tədbirə gələrkən qeyri-ixtiyari olaraq keçmişləri xatırladım, on gündən qalmış meyitlərin tabuta qoyularaq onun çalışdığı mədəniyyət evinin səhnəsindən götürülməsini yada saldım. Bu hadisələrin gedişi ilə məşğul olmaq və bütün olanlara əvvəldən axıra kimi tab gətirmək adamdan böyük ürək tələb edirdi. Şərur rayonunda Fəxri Xiyabanın yaradılması da hərbi sahədə misilsiz xidmətlər göstərmiş Abdulla Qurbaninin zəhməti sayəsində mümkün oldu.

Mirzə Cəlilin ev muzeyi kimi digər bir sıra muzeylərin yaradılması və açılışı prosesi də birbaşa Abdulla Qurbanin adı ilə bağlıdır. Aradan uzun illər keçməsinə baxmayaraq bu gün də həmin açılış proseslərində Abbas Zamanov kimi Həsən Şiraliyev kimi nəhəng şəxsiyyətlərin iştirakını, dediyi xoş sözləri yaxşı xatırlayıram. Mənə zəng gəldiyi üçün hamıdan üzr istəyib getməyə məcburam. Sözümün sonunda əziz dostum və qardaşım Abdulla Qurbanini təbrik etməklə bərabər, ona uzun ömür, möhkəm can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzu edirəm.

**Akademik Vəli Əliyev:** - Abdulla Qurbaninin qaynar və səmərəli fəaliyyət illəri tariximizin çox keşməkeşli və məsuliyyətli bir dövrünə təsadüf edir. Adamların nəcib arzularla, kövrək duyğularla yaşadığı bir zamanda gözlənilmədən vətənimizin başı üstünü qara buludlar aldı. Belə yerdə deyirlər ki, sən saydığını say, gör fələk nə sayır. Mən bir arada Naxçıvanda "Qalalı dağlar" adlı veriliş təşkil etmək istədim, lakin sonra hadisələr gərginləşdiyi üçün mən bu layihəni gerçəkləşdirə bilmədim. Amma Abdulla Qurbani bir çox taleyüklü məsələlərin həlli zamanı məndən də irəliyə getməyi bacardı. Onun Şərurdakı atası evində gördüklərim məndə o qədər zəngin təəssürat yaradıb ki, bu barədə cild-cild kitablar yaza bilərəm. Onun təmsil olunduğu müqəddəs və şərəfli nəsil Şərurdakı bütün ali dəyərləri öz timsalında cəmləşdirə bilmişdir. Abdulla ilə bizim dostluğumuz, qardaşlığımız, eləcə də ümumi iş birliyimiz uzun illər boyu davam edib formalaşmışdır. Elmi-mədəni fəaliyyətlə məşğul olduğumuz günlərin birində Abdullanın əyninə hərbi forma geyinmiş halda otağıma daxil olması mənə xeyli dərəcədə gözlənilməz təsir bağışladı. Boyca balaca olmasına baxmayaraq, əyninə forma geyinmiş oğlu da yanında idi. Soruşdum ki, Abdulla, bu nə geyim, bu nə məsələdir? Qayıtdı ki, Vətəndə bu qədər ağır döyüşlərin getdiyi , bu qədər şəhidlərin gəldiyi bir məqamda mən sakit mövqe tutub dinc fəaliyyətlə məşğul ola bilmərəm. Axı mən vuruşub şəhid olan bu mərd oğulların heç birindən artıq ola bilmərəm. Soruşdum ki, yaxşı, bəs bu balaca tifili hara aparırsan? Dedi, əgər bu mənim övladımdırsa, həyatın hər üzünü öz gözləri ilə görməlidir. Dedi və dediyi kimi də elədi.



Bundan sonra Abdullanın səsi-sorağı ən çətin sahələrdən, qarlı -çovğunlu Murov dağından, qanlı döyüşlərin getdiyi ağır cəbhə bölgələrindən gəlməyə başladı. Bu gün hər bir qeyrətli Azərbaycan övladı onun keçdiyi ibrətamiz və şərəfli döyüş yolu və yazdığı yüzdən artıq sanballı kitab barədə kifayət qədər zəngin bilgilərə malikdir. Heç yadımdan çıxmaz, o hər dəfə qarlı Murovdan yanıma gəlib səngərdə yazdığı şeirlərini oxuyanda mən kövrəlib qəhərlənir, göz yaşlarımı zorla saxlayırdım. Abdullanın keçdiyi həyat, döyüş və yaradıcılıq yolu qurub - yaradan, vətənimizi qüdrətli, çiçəklənən bir məmləkətə çevirən qaynar təbiətli gənclərimiz üçün ən ibrətamiz bir nümunə kimi göstərilməyə layiqdir. Qədim romalılar bəşər tarixində klassik dövlətçilik nümunəsinin əsaslarını yaratmağa nail olublar və bu klassik dövlətçiliyin strukturlarını müəyyənləşdiriblər. Klassik dövlətçiliyin terminləri də bizə məhz qədim romalılardan yadigar qalmışdır. Tarixçilər də dönə-dönə vurğulayır ki, müasir Avropanın mədəniyyətini quranlar məhz qədim romalıların zəngin tarixi təcrübəsindən yaradıcı şəkildə bəhrələniblər. Bu sahədə ən böyük tarixi təcrübəni yaradan isə məhz Yuli Sezar olub. Mənim əzizlərim, sözümün canı budur ki, biz də bu gün məhz Abdulla kimi yüksək savadlı, fenomenal qabiliyyətli oğulların sayəsində tədricən kövrək addımlarını atan , qurulub formalaşan müasir və müstəqil Azərbaycan tarixini yaradıb formalaşdırmalıyıq. Tam məsuliyyət hissi ilə qeyd etməyi özümə borc bilirəm ki, Abdulla Qurbaninin yazdığı kitablar həm də müasir Azərbaycan dövlətçiliyi tarixinin mühüm tərkib hissəsi deməkdir. Bütün bunlardan əlavə Abdulla Qurbani gözəl ailə başçısı, çox etibarlı bir dostdur. Mən deyərdim ki, o həm də bir şəxsiyyət kimi bizim türk-müsəlman dünyasının çox dəyərli bir övladıdır. Mən ömrünün şəxsən birinci pilləsinə qədəm qoymuşam və belə deyirlər ki, yığılıb bu günlərdə mənim şəksən illik yubileyimi qeyd etmək istəyirlər. Odur ki, əziz dostum Abdullaya da ömrünün yetmişinci, səksəninci, doxsanıncı yubileylərini görməyi və yığılıb dostları ilə, doğmaları ilə birgə keçirməsini arzu edirəm.



**Professor-Asif Rüstəmli:** - Əksər dəyərli ziyalılarımızın Abdulla Qurbani sənətinə, şəxsiyyətinə çox böyük dəyər verməsi heç də təsadüfi deyil. Onun yaradıcılığında bir neçə mövzu paralel, boyaboy görünməkdədir. Bunlardan vətənpərvərlik, Heydər Əliyev, Azərbaycan və azərbaycançılıq, millətə və torpağa bağlılıq, qazilər, hərbçilər, milli qəhrəmanlar və şəhidlər kimi mövzular xüsusilə özünü qabarıq şəkildə nümayiş etdirir. Rusların ədəbiyyatına diqqətlə nəzər salsaq görərik ki, onlarda hərbi ədəbiyyat ayrıca, müstəqil bir sahə kimi mövcuddur. Bizdə isə şəhidlər, döyüş veteranları, güc strukturlarında çalışan nümunəvi insanlar barədə kifayət qədər məqalə, monoqrafiya və kitablar qələmə alınsa da, hələ ki, hərbi ədəbiyyat mükəmməl, müstəqil bir sahə kimi özünün formalaşma , püxtələşmə dövrünü yaşayır. Ancaq mənə belə gəlir ki , məhz Abdulla Qurbaninin zəngin yaradıcılığı sayəsində bu sahə üzrə ciddi irəliləyişi müşahidə etmək mümkündür. Biz Cumhuriyyət dövrünə xas olan hərbi ədəbiyyat tarixini tədqiq edərkən məlum oldu ki, o zamanlar da çoxlu sayda hərbi marşlar mövcud olub və bu marşların mətni sonralar heç yerdə çap olunmayıb. Həmin marşların mətni bu gün də Dövlət arxivində ümumi dəftər şəklində hifz edilməkdədir. Müasir dövrdə yaranan hərbi marşların böyük əksəriyyəti isə məhz əziz dostumuz Abdulla Qurbaninin sözləri əsasında ərsəyə gəlib və bu marşlar Yusif Axundzadənin rəhbərlik etdiyi hərbi orkestr tərəfindən ifa olunub. Həyatda ara-sıra da olsa yazdığı kitabların sayı yaşadığı illərin sayından çox olan dəyərli şəxsiyyətləri görüb tanımışıq. Amma mən istərdim ki, Abdulla müəllim bundan sonra da neçə-neçə onilliklər boyunca sağlam, məhsuldar ömür yaşasın və yaşadığı illərin sayı yazdığı kitabların sayından çox olsun. Yeri gəlmişkən , mən bu mötəbər məclisdə bir təklifimi səsləndirmək istəyirəm . Bildiyimiz kimi , möhtəşəm Azərbaycan ədəbiyyatında söz, fikir, düşüncə generallarının sayı kifayət qədərdir. Arzu edərdim ki, yaxın vaxtlarda qazanacağımız mühüm hərbi qələbələrin fonunda bizim general paqonlu ilk qüdrətli yazıçımız məhz Abdulla Qurbani olsun.

***(Davamı var)***

***Bayram AFURCALI***